**Azərbaycan Milli Kitabxanası ilə Qazaxstan Respublikasının Astana şəhərindəki Milli Akademik Kitabxanası arasında ikitərəfli**

# QARŞILIQLI ANLAŞMA VƏ ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1** Hazırki Anlaşma və Əməkdaşlıq Memorandumu (Memorandum), bundan sonra "Tərəflər" adlandırılacaq direktor Kərim Məhəmməd oğlu Tahirovun təmsil etdiyi "Azərbaycan Respublikasının Milli Kitabxanası" ilə müdir Umitxan Dauranbek qızı Munalbayevanın təmsil etdiyi "Qazaxıstan Respublikasının Astanadakı Milli Akademik Kitabxanası" arasında əlaqələri bərqərar edir.

**1.2** Tərəflər hazırki Memorandumu mədəni əlaqələrin inkişafını və kitabxana - informasiya xidmətləri sahəsində qarşılıqlı faydalı əməkdaşlığı artırmaq məqsədi ilə bağlayır.

## 2. MEMORANDUMUN MƏQSƏDİ

**2.1** Bu Memorandumun məqsədi kitabxanaçılıq, biblioqrafiya və digər əlaqəli elmlər, kitab mübadiləsi, mədəniyyət proqramları, mütəxəssislərin peşəkarlığı, müasir kitabxana işində rəqəmsal texnologiyaların inkişafı və oxucu kütləsinin genişlənməsi sahələrində ortaq maraqlar nəzərə alınaraq tərəflər arasındakı əməkdaşlıqdır.

## 3. TƏRƏFLƏRİN VƏZİFƏLƏRİ

**3.1** Hazırki Memorandum Tərəflər arasındakı qarşılıqlı faydalı əməkdaşlığın aşağıdakı sahələrini müəyyənləşdirir:

- Kitabxanaçılıq, kitabşünaslıq, kitabxana kolleksiyalarının və informasiya texnologiyalarının bərpası və qorunması sahəsində birgə tədqiqatların aparılması.
- Kitab mübadiləsi, xüsusilə ensiklopediyalar, monoqrafiya və lüğətlər, rəqəmsal kolleksiyaların mübadiləsinin həyata keçirilməsi.
- Birgə sərgilərin, tədbirlərin (konfranslar, seminarlar, festivallar) keçirilməsi. Azərbaycan Respublikası Milli Kitabxanası və Qazaxıstan Respublikasının Astana şəhərindəki Milli Akademik Kitabxanasının iştirakı ilə tədbirlərin onlayn yayımlarının təşkili.
- Kitabxana işçilərinin ixtisas səviyyələrini artırmaq, təcrübə mübadiləsi, o cümlədən peşəkar səfərlər, təlimlər, master-klasslar keçirməyə yönəlmiş tədbirlərin həyata keçirilməsi.
- Hər iki tərəfin mənafeyi naminə kooperativ nəşriyyat, Azərbaycan Respublikası Milli Kitabxanası və Qazaxıstan Respublikasının Astana şəhərindəki Milli Akademik Kitabxanasının peşəkar dövri nəşrlərində materialların qarşılıqlı dərc olunması.
- Tərəflərin informasiya resurs fondlarına qarşılıqlı giriş üçün virtual mühitin yaradılması.

## 4. TƏRƏFLƏRİN QARŞILIQLI ƏLAQƏSİ

4.1 Hazırki Memorandum çərçivəsində Tərəflər hər iki ölkənin qanunvericiliyini, digər normativ hüquqi aktları rəhbər tutur və bərabərlik, açıqlıq və nəzakət prinsipləri üzərində qarşılıqlı fəaliyyəti həyata keçirir. Hazırki Memoranduma edilən bütün dəyişiklik və əlavələr Tərəflərlə razılaşdırılmaqla yazılı şəkildə həyata keçirilir.

## 5. YEKUN MÜDDƏALƏR

5.1 Tərəflər bu Memorandum çərçivəsində həyata keçirilən hərəkətlərin Tərəflərdən hər hansı birinin səlahiyyət və hüquqlarına xələl gətirməməsi prinsipinə əsaslanırlar.

5.2 Hazırki Memorandumun əhatə etdiyi məsələlər üzrə Tərəflər arasındakı mübahisələr və fikir ayrılıqları Tərəflər arasında danışıqlar və ya məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

5.3 Hazırki Memoranduma dəyişiklik və əlavələr yazılı şəkildə tərtib edilir, Tərəflərin səlahiyyətli şəxsləri tərəfindən imzalanır və hazırki Memorandumun ayrılmaz hissəsidir.

## 6. MEMORANDUMUNUN FƏALİYYƏTİNİN MÜDDƏTİ

6.1 Hazırki Memorandum imzalandığı andan qüvvəyə minir və həmin tarixdən başlayaraq 5 il müddətində qüvvədədir. Tərəflərdən hər hansı biri digər tərəfə Memorandumu ləğv etmək istədiyi təqdirdə, bitmə tarixindən 3 (üç) ay əvvəl yazılı şəkildə məlumat verməlidir, əks halda Memorandumun müddəti bitdikdən sonra uzadılacaq.

6.2 Hazırki Memorandum Azərbaycan, qazax və rus dillərində 2 (iki) nüsxədə, hər bir Tərəf üçün 1 (bir) nüsxədə hazırlanmışdır.

**Tərəflərin imzaları:**

| Azərbaycan Milli Kitabxanası | Qazaxıstan Respublikasının Astana şəhərindəki Milli Akademik Kitabxanası |
|---|---|
| Direktor | Müdir |
| Prof. Kərim Tahirov | Umitxan Munalbayeva |

**28 sentyabr 2019-cu il**